**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# QİDA SƏNAYESİNDƏ İQTİSADİ MÜNASİBƏTLƏR SİSTEMİNİN TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ (ƏT-SÜD EMALI MÜƏSSİSƏLƏRİNİN TİMSALINDA)

İxtisas: 5312.01 – Sahə iqtisadiyyatı

Elm sahəsi: İqtisad elmləri

İddiaçı: **Tərlan Kəniş qızı Qorçiyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2026**

Dissertasiya işi Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyində Aqrar Tədqiqatlar Mərkəzinin Ərzaq təhlükəsizliyi və aqrar sahədə dövlət dəstəyi siyasəti bölməsində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | iqtisad elmləri doktoru, professor<br>**Vahid Hacıbəy oğlu Abbasov** |
| Rəsmi opponentlər: | iqtisad elmləri doktoru, professor<br>**Məhərrəm Cəlal oğlu Hüseynov** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Aytən Ziyad qızı Səmədzadə** |
| | iqtisad elmləri üzrə fəlsəfə doktoru<br>**Esmira Canəli qızı Abdullayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri: | AMEA-nın həqiqi üzvü,<br>iqtisad elmləri doktoru, professor<br>**Ziyad Əliabbas oğlu Səmədzadə** |
| Dissertasiya şurasının elmi katibi: | iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent<br>**Samirə Yaşar qızı Məmmədova** |
| Elmi seminarın sədri: | iqtisad elmləri doktoru, professor,<br>Əməkdar kənd təsərrüfatı işçisi<br>**İslam Hacı oğlu İbrahimov** |

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Ölkənin milli ərzaq təhlükəsizliyinin təmin edilməsi dövlət siyasətinin prioritet vəzifələrindən biridir və qida sənayesinin müxtəlif istehsal sahələrinin fəaliyyətinin səmərəliliyindən asılıdır. Çünki, qida sənayesi inkişaf etmədən ölkənin ərzaq bazarını formalaşdıraraq inkişaf etdirmək mümkün deyil. Bu baxımdan qida sənayesinin yeni texnologiyalar əsasında inkişafının təmini strateji ərzaq ehtiyatlarının yaradılmasına imkan verir. Bundan başqa əhalinin ərzaq məhsullarına əlçatanlığının təmin edilməsi üçün yerli ərzaq bazarlarının tənzimlənməsi tələb olunur. Ərzaq bazarlarının vəziyyəti, onun strukturunda yüksək emal olunmuş məhsulların çeşidindən və buna uyğun olaraq xüsusi çəkisindən asılıdır. Onu da nəzərə almaq lazımdır ki, həm əhalinin həyat səviyyəsinin yaxşılaşması, həm də sağlam yaşaması ərzaq istehsalının həcmindən, onların çeşidindən, keyfiyyətindən və qiymətindən asılıdır. Buna görə də ölkənin təsərrüfat kompleksi sistemində yeyinti sənayesi strateji və sosial əhəmiyyətli sahələrdən biri kimi təsnif edilir.

Məhz bu baxımdan, ölkə əhalisinin geniş çeşidli qida məhsullarına olan təlabatının ödənilməsi bu sahənin inkişafına xüsusi diqqət və qayğı göstərilməsini şərtləndirir. Ölkə əhalisinin ərzaq məhsullarına olan tələbatının ödənilməsinin yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikası Prezidenti cənab İ.H.Əliyevin 25 avqust 2008-ci il tarixli № 3004 saylı Sərəncamı ilə "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" təsdiq edilmişdir. Dövlət Proqramının əsas hədəflərindən biri də 2015-ci ildə ət istehsalının 340 min tona, süd və süd məhsullarının istehsalının 2,4 milyon tona çatdırılması nəzərdə tutulmuşdur.[1] Lakin, kənd təsərrüfatında yol verilən nöqsanlar, istehsal resurslarından səmərəsiz istifadə qarşıya qoyulan hədəfə nail olmağa imkan verməmişdir. Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatına görə 2015-ci ildə ət istehsalı 298,6

---

[1] "2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı".Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 25 avqust tarixli sərəncamı. URL: https://e-qanun.az/framework/15320

min ton, süd və süd məhsulları istehsalı 1,9 milyon ton təşkil etmişdir. Beləliklə 2015-ci ildə ət istehsalı qarşıya qoyulan hədəfin 87,8%-ni, süd və süd məhsulları istehsalı isə 79,2%-ni təşkil etmişdir.

Kənd təsərrüfatı və emal sənayesinin sürətli inkişafının təmin edilməsi məqsədilə ölkə Prezidentinin 16 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" təsdiq edilmişdir. Bu yol xəritəsində sahənin inkişafının təmin edilməsi üçün konkret məqsəd və vəzifələr müəyyənləşdirilmişdir.[2] Keçən müddət ərzində kənd təsərrüfatı məhsulları istehsalı artmış, əhalinin ərzaq və qida məhsullarına olan tələbatının daha dolğun ödənilməsi və beləliklə də insanların həyat səviyyəsinin keyfiyyətinin daha da yüksəlməsinə müəyyən qədər nail olunmuşdur. Lakin, mövcud problemlər, daxili bazarın hələ də idxaldan asılı olması, keyfiyyətli və ekoloji təmiz ərzaq məhsullarına tələbatın çox olması və qiymətlərin yüksək olması, sahə üzrə mövcud olan bütün qida sənayesi müəssisələrinin öz istehsal gücündən tam istifadə edə bilməməsi, bu sahədə hələ də çoxlu problemlərin olduğunu göstərir. Araşdırmalarımız göstərir ki, sahənin inkişafı məqsədilə bu sahədə fəaliyyət göstərən müəssisələrin, o cümlədən ət və süd emalı müəssisələrinin fəaliyyətlərini səmərəli davam etdirmələri üçün digər müəssisələrlə iqtisadi münasibətlər sisteminin tənzimlənməsinə ehtiyac vardır. Əks halda – yəni sahənin inkişafının tamamilə bazar mexanizminin öhdəsinə buraxılması strateji əhəmiyyət kəsb edən bu sahənin tənəzzülünə, ölkəmizin ət və süd məhsulları bazarının müvafiq məhsullar üzrə beynəlxalq bazarlardan asılılığının güclənməsinə və ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsinin azalması ilə nəticələnə bilər. Belə mənfi təsirlərdən yayınmaq üçün ət və süd emalı müəssisələrinin xammal istehsalçısı olan təsərrüfatlarla iqtisadi münasibətlər sistemi tənzimlənməli və bütövlükdə müqavilə əsasında fəaliyyət göstərən müəssisə və təsərrüfatların tarazlı inkişafı təmin edilməlidir.

---

[2] Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi. Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmişdir. URL:https://mida.gov.az/documents/strateji_yol_xeritesi_kend_teserrufati_mehsullarinin_istehsalina_ve_emalina_dair.pdf

Hazırda ölkəmizin ərzaq bazarının ət və ət məhsulları, həmçinin süd və süd məhsulları seqmenti bu bazarın başqa seqmentləri ilə müqayisədə daha böyük artım potensialına malikdir. Bu, əhalinin sözügedən məhsullara tələbatının tam ödənilməməsi ilə bağlıdır və belə vəziyyət uzun illərdir ki, davam edir. Ölkəmizdə insanların sağlam və fəal həyat tərzinin təmin edilməsi üçün adambaşına ət və ət məhsullarının istehlakı təqribən 2,1 dəfədən çox, süd və süd məhsullarının istehlakı isə 1,5 dəfədən çox artırılmalıdır. Bu məqsədə nail olmaq üçün ölkənin müxtəlif regionlarında, o cümlədən işğaldan azad edilmiş Qarabağda yeni ət və süd emalı müəssisələrinin yaradılmasını, onların fəaliyyətinin dövlət tərəfindən müdafiə edilməsi və stimullaşdırılmasını, bu müəssisələrin başqa müəssisələrlə iqtisadi münasitətlər sisteminin tənzimlənməsini şərtləndirir. Bütün bu qeyd olunanlar dissertasiyanın mövzusunun aktual olduğunu və onun işlənib hazırlanmasının istər elmi-nəzəri, istərsə də təcrübü baxımdan əhəmiyyət kəsb etdiyini göstərir.

Ölkəmizin alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev, İ.H.İbrahimov, İ.H.Alıyev, B.X.Ataşov, F.V.Quluyev, E.R.İbrahimov, V.H.Abbasov, H.A.Xəlilov, T.N.Əliyev, E.Ə.Quliyev, H.A.İsrafilov və başqaları aqrar sahənin və qida sənayesi müəssisələrinin iqtisadi münasibətlər sisteminin tənzimlənməsilə bağlı bir sıra tədqiqatlar aparmışılar.

Qida sənayesində iqtisadi münasibətlər sisteminin, o cümlədən ət və ət məhsulları, süd və süd məhsulları istehsal edən müəssisələrin iqtisadi münasibətlərinin tənzimlənməsinə xarici ölkə alimlərindən Antsiferova O.Y., Baybakova T.V., Qnatovskaya Y. S., İqan Con, İlina L. A., Kyek Z. N., Makareviç L. O., Ulezko A. V., Riçard L. Kolz, Sovetov P. M., Yunusova P. S., Porter M. E., Boqomolova İ., Kotarev A. və başqaları xüsusi diqqət yetirmiş və dəyərli tədqiqatlar aparmışlar.

Seçilmiş mövzu üzrə çoxsaylı tədqiqatların aparılmasına baxmayaraq, idarə etmənin köklü surətdə dəyişdiyi və keyfiyyətcə yeni səviyyəyə yüksəlməsi, bazar münasibətləri şəraitində ölkəmizdə qida sənayesi müəssisələrinin iqtisadi münasibətlər sisteminin tənzimlənməsinə daima ehtiyac yaranır və yeni mövqedən tədqiqat işinin aparılmasını şərtləndirir.

**Tədqiqatın obyekti və predmeti.** Qida sənayesi, o cümlədən ət və süd emalı müəssisələri tədqiqatın obyektidir. Ət və süd emalı müəssisələrində iqtisadi münasibətlər sisteminin tənzimlənməsi məsələləri tətbiq olunan üsul və vasiələr tədqiqatın predmetidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi qida sənayesində fəaliyyətin tənzimlənməsinin nəzəri əsaslarının tədqiq edilməsi, sahədə iqtisadi münasibətlər sisteminin mövcud vəziyyətinin təhlili, ət və süd emalı müəssisələrinin timsalında iqtisadi münasibətlər sisteminin tənzimlənməsi istiqamətlərinin müəyyən edilməsidir.

Qarşıya qoyulan məqsədə nail olmaq üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmiş və yerinə yetirilmişdir:

- qida sənayesi müəssisələrinin inkişaf xüsusiyyətlərinin müəyyən edilməsi;
- ət və süd emalının tənzimlənməsinin nəzəri əsaslarının tədqiq edilməsi;
- ət və süd emalı müəssisələrinin bölgələr üzrə üzrə yerləşməsi və onların xammal istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiya əlaqələrinin təhlil edilməsi;
- qida sənayesi və bu sahənin ət və süd emalı müəssisələrinin bazar fəaliyyətinə, eyni zamanda bu müəssisələrlə xammal istehsalçıları arasında inteqrasiya əlaqələrinə təsir göstərən amillərin təsnifatlaşdırılması;
- ət və süd emalı müəssisələrinin iqtisadi münasibətlər sisteminin tənzimlənməsinin mövcud vəziyyətinin təhlili və tənzimlənmə istiqamətlərinin müəyyən edilməsi;
- ət və süd klasterlərinin təşkilinin zəruriliyi və iqtisadi əhəmiyyətinin əsaslandırılması.

**Tədqiqatın metodları.** Dissertasiya işinin nəzəri əsasını, qida sənayesi və bu sahənin ət və süd emalı müəssisələrinin iqtisadi münasibətlər sisteminin tənzimlənməsi sahəsində tanınmış yerli və xarici ölkə mütəxəssislərinin əsərləri təşkil edir. Dissertasiya işinin yazılması zamanı qida sənayesinin və bu sahədə fəaliyyət göstərən emal müəssisələrinin fəaliyyətini tənzimləyən qanunlardan və normativ-hüquqi sənədlərdən, həmçinin dövlət proqramlardan istifadə edilmişdir. Tədqiqat zamanı kompleks və sistem yanaşmalardan, balans metodundan, iqtisadi-statistik təhlildən, induksiya və

deduksiya metodlarından istifadə edilmişdir.

Həmçinin tədqiqatın aparılması zamanı Dövlət Statistika Komitəsinin, Kənd Təsərrüfatı və İqtisadiyyat Nazirliklərinin, Elmi Tədqiqat İnstitutlarının və Tədqiqat Mərkəzlərinin hesabatlarından, yerli və xarici alimlərin bu sahədə apardığı tədqiqatlardan, qida sənayesində fəaliyyət göstərən müəssisələrin məlumatlarından və marketinq müşahidələri zamanı toplanılan məlumatlardan istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan müddəalar.** Dissertasiya tədqiqatından əldə edilən elmi yeniliklər nəzərə alınaraq, aşağıdakı əsas müddəalar müdafiəyə çıxarılır:

- qida sənayesinin inkişafının səciyyəvi xüsusiyyətləri tədqiq edilmiş və bu sahədə iqtisadi münasibətlər sisteminin tənzimlənməsinə ehtiyac vardır;
- qida sənayesinin səmərəli inkişafına regionlarda xammal bazası ilə emal müəssisələrinin yerləşdirilməsi arasında uyğunsuzluğun müəyyənləşdirilməsi və bu problemin elmi əsaslandırılmış həlli tələb olunur;
- ət və süd sənayesinin inkişafında özünü göstərən iqtisadi problemlərin müəyyənləşdirilməsinə və onların həlli yollarına daim diqqət yetirilməlidir;
- ət və süd emalı müəssisələrinin bazar fəaliyyətinə, həmçinin bu müəssisələrin kooperasiya-inteqrasiya əlaqələrinin formalaşdırılmasına təsir göstərən amillərin müəyyən edilməsi vacib şərtlərdən biridir;
- yeni iqtisadi münasibətlər şəraitində xammal istehsalçıları ilə ət və süd emalı müəssisələri arasında kooperasiya və inteqrasiya əlaqələrinin genişləndirilməsinə və idarə edilməsinin təkmilləşməsinə zərurət vardır;
- qida sənayesində, onun müəssisələrində ət və süd klasterlərinin təşkilinin metodologiyasının işlənilməsi tələb olunur.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqat işinin elmi yeniliyi aşağıdakılardan ibarətdir:

✓ ət və süd sənayesinin əsas sistem problemləri müəyyənləşdirilmiş və onların həlli istiqamətləri verilmişdir;

✓ regionlarda xammal bazasının inkişafı ilə emal müəssisələrinin

yerləşdirilməsi arasında uyğunsuzluq müəyyənləşdirilmiş və bu problemin həlli istiqamətləri elmi cəhətdən əsaslandırılmışdır;
- ✓ müasir bazar fəaliyyətinə uyğun ət və süd emalı müəssisələri ilə heyvandarlıq təsərrüfatları arasında kooperasiya-inteqrasiya münasibətləri əsasında əlaqələrinin tənzimlənməsi imkanları müəyyən edilmişdir;
- ✓ xammal istehsalçıları ilə ət və süd emalı müəssisələri arasında kooperasiya və inteqrasiya əlaqələrinin yaradılması, tənzimlənməsi və idarə edilməsinin təkmilləşdirilməsi elmi cəhətdən əsaslandırılmışdır;
- ✓ ət və süd emalı sənayesinin sahələrarası əlaqələrinin dövlət tənzimlənməsi istiqamətləri və onların təkmilləşdirilməsi zəruriliyi göstərilmişdir;
- ✓ ət və süd klasterlərinin təşkilinin metodologiyası işlənib hazırlanmışdır.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiyanın nəzəri əhəmiyyəti ondan ibarətdir ki, qida sənayesində iqtisadi münasibətlər sisteminin tənzimlənməsinə dair işlənib hazırlanmış təkliflərin tətbiqi həm qida sənayesinin, həm də bu sənaye sahəsinin xammal bazası kimi çıxış edən kənd təsərrüfatının ayrı-ayrı sahələrinin sürətli inkişafına təkan verə bilər. Nəticədə qida sənayesi müəssisələrinin kənd təsərrüfatı müəssisə və təsərrüfatları üçün oynadığı lokomotiv rolu güclənə, ölkənin ərzaq təhlükəsizliyinin təmin olunma səviyyəsi yüksələ və əhalinin ayrı-ayrı təbəqələrinin geniş çeşidli ərzaq məhsullarına tələbatı daha dolğun ödənilə bilər.

Tədqiqatın materiallarından gələcəkdə qida sənayesinin inkişafı məqsədilə işlənib hazırlanacaq proqram xarakterli sənədlərdə, həmçinin müvafiq sahə üzrə ixtisaslı kadrların hazırlanılmasında istifadə edilə bilər ki, bu da tədqiqatın praktiki əhəmiyyətini şərtləndirir.

**Aprobasiya və tətbiqi.** Dissertasiyanın başlıca müddəaları və əsas nəticələri 3 tezis (1-i xaricdə olmaqla) və 5 məqalədən (1-i xaricdə olmaqla) ibarət olmaqla Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici nəşrlərdə, həmçinin respublika və beynəlxalq əhəmiyyətli elmi-praktiki konfrans materiallarında öz əksini tapmışdır. Müəllifin "Milli iqtisadiyyatın sistemlilik xüsusiyyətləri" (Bakı-2019), "Qida sənayesində iqtisadi münasibətlər sisteminin

tənzimlənməsi istiqamətləri" (İsveç-2023), "Ət və süd emalı sənayesinin iqtisadi inkişaf xüsusiyyətləri" (Sumqayıt-2023) adlı tezisləri; həmçinin, "Aqrar-sənaye kompleksi sahələrində iqtisadi statistik qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi yolları" (Bakı-2017), "Qida sənayesi sahələrinin inkişaf prioritetləri" (Bakı-2020), "Ət və süd emalı müəssisələrinin bazar fəaliyyətinə təsir göstərən amillərin təhlili" (Bakı-2023), "Current state and prospects for development of the meat and dairy industry in Azerbaijan" (Rumıniya-2023), "Aqrar emal sənayesinin inkişafında əmək ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsi" (Bakı-2025) adlı məqalələri dərc edimişdir.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi tabeliyindəki Aqrar Tədqiqatlar Mərkəzi.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla işarə ilə ümumi həcmi.** Dissertasiya işi titul, mündəricat, giriş (12056), üç fəsil – birinci fəsil (85019), ikinci fəsil (83700), üçüncü fəsil (51805), nəticə (16390) və istifadə edilmiş mənbələr və ədəbiyyat siyahısından ibarət olmaqla ümumi həcmi 293663 işarədir. Ədəbiyyat siyahısı, diaqram, sxem və cədvəllər istisna olmaqla isə dissertasiya işi 248970 işarə həcmindədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində tədqiqat mövzusunun aktuallığı və işlənilmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, onun nəzəri və praktiki əhəmiyyəti, aprobasiyası və tətbiqi, işin ümumi həcmi şərh olunmuşdur.

**Dissertasiya işinin birinci fəsli "Qida sənayesinin sosial-iqtisadi əhəmiyyəti və onun tənzimlənməsinin nəzəri əsasları"** adlanır. Bu fəsildə qida sənayesinin tənzimlənməsinin nəzəri əsasları; qida sənayesinin ölkə iqtisadiyyatında yeri; ət və süd emalı sektorunun inkişaf xüsusiyyətləri istiqamətində tədqiqatlar aparılmış yerli və xarici alimlərin bu istiqamətdə elmi fikirlərinə münasibət bildirilmişdir.

Hazırda bu müəssisələrin istehsal edəcəkləri məhsullara və həmin

məhsulların satışına dair informasiyalar bazardan daxil olur və qida sənayesinin inkişafını bazar mexanizmi vasitəsilə tənzimləyir. Bununla belə strateji əhəmiyyət kəsb edən qida sənayesinin inkişafına həm də əlaqədar dövlət strukturları tərəfindən stimullaşdırıcı və müdafiəedici xarakterli təsirlər göstərilir və sahənin inkişafı arzuedilən məcraya yönəldilir. Fikrimizcə bu belə də olmalıdır, çünki həyati əhəmiyyət kəsb edən bu sahənin (eyni zamanda sahənin inkişafı ilə əlaqəli başqa sahələrin, məsələn, kənd təsərrüfatının və s.) inkişafının tamamilə bazar mexanizminin öhdəsinə buraxılması özünü doğrultmur və bu cür inkişafın arzuedilməz mənfi nəticələrini aşağıdakı kimi təsnifləşdirmək olar:

- rəqabəti məhdudlaşdıran inhisarçı strukturların meydana gəlməsi;
- sahənin inkişafının kortəbii surətdə getməsi ətraf mühitin çirklənməsinə və gələcək nəsillərin ərzaq məhsullarına tələbatının ödənilməsinə, dayanıqlı və davamlı inkişafın təmin edilməsinə maneələr yaradır;
- bazarın müdaxilə edilmədən özünütənzimləmə prinsipi əsasında inkişafı dövlət nəzarətinin zəifləməsinə və sosial baxımdan müdafiəsiz qalan əhali təbərələrinin artımına gətirib çıxara bilir.

Yuxarıda sadalanan mənfi məqamlar inkişafın tamamilə bazar mexanizminin təsiri altında getməsinin arzuedilməzliyini və sahədə dövlət tənzimlənməsinin qaçılmaz olduğunu göstərir.

Bu fəsildə qeyd edilir ki, qida sənayesinin tənzimlənməsi məsələləri ilə bir sıra strukturlar məşğul olurlar, lakin onların arasında, sözügedən sahənin inkişafına ən güclü təsiri dövlət göstərir. Qida sənayesinin dövlət tənzimlənməsi dedikdə isə həmin sahənin inkişafının arzuedilən məcraya yönəldilməsi üçün məqsədyönlü tədbirlərin işlənib hazırlanması və reallaşdırılması başa düşülür.

Dövlət bu və ya digər sahədə özünün tənzimləyici funksiyasını iki qrup metodları: birbaşa (inzibati) və dolayı (iqtisadi) metodları əlaqələndirməklə həyata keçirir. Qeyd edilən bu metodların bölgüsü bir sıra hallarda şərti xarakter daşıyır, belə ki, hansı tədbirin hansı metoda aid olmasını qəti təsdiqləmək çətinlik yaradır. Lakin buna baxmayaraq, dövlətin iqtisadi prosesləri tənzimləməsindəki rolunu bu metodlar üzrə aydınlaşdırmaq mühüm əhəmiyyət kəsb edir.

Azərbaycanın kənd təsərrüfatının, eyni zamanda bütövlükdə aqrar-ərzaq sektorunun dövlət tərəfindən müdafiə edilməsinə dair mövqelər uzun illər ərzində formalaşmışdır. Bu mövqelər aşağıdakı dörd qrupda birləşdirilir:

- xarici ticarət əlaqələrinin genişləndirilməsi istiqamətində;
- kənd təsərrüfatında gəlirlərin səviyyəsilə bağlı mövqelər üzrə;
- kənd yerlərinin inkişafı ilə bağlı mövqelər üzrə;
- ətraf mühitin mühafizəsi və ekoloji təmiz məhsul istehsalı istiqamətlərində.

Professor E.A.Quliyev öz tədqiqatlarında qeyd edir ki, *"aqrar - ərzaq bazarının qorunması vasitələrinin tətbiqi üçün əlverişli mühitin formalaşmasında kooperativlər şəbəkəsinin rolu kifayət qədər böyükdür. Həmin rol təminatlı qiymətlər sisteminin tətbiqi, bazarda minimum qiymət həddinin müəyyənləşdirilməsi, yerli istehsalın və daxili bazarın qorunması baxımından çevik və manevr qabiliyyətli gömrük rüsumlarının tətbiqi və artıq qeyd olunduğu kimi, pilot kooperativlər şəbəkəsinin yaradılması üzrə dövlət proqramlarının işlənib hazırlanması sayəsində arta bilər"*[3].

İnteqrasiya-kooperasiya əlaqələri ölkəmizin aqrar-ərzaq sistemində çox inkişaf etməsə də, həmin əlaqələrin inkişafı sözügedən kompleksin fəaliyyətindən alınan nəticələrin yüksəlişinə rəvac verə bilər. Bunu inkişaf etmiş ölkələrin təcrübəsi də göstərir.

Ölkəmizin aqrar-ərzaq və qida məhsulları istehsalında kənd təsərrüfatı xammalı istehsalçıları ilə emal müəssisələri arasında inteqrasiyalaşmanın hər üç tipindən istifadəyə ehtiyac var və bunu bir sıra səbəblər şərtləndirir. Əlbəttə, bu səbəblər sırasında, ilk növbədə, emal və qida müəssisələrinin xammala olan tələbatları və bu tələbatın ödənilməsi zamanı kəskin dəyişmələrin olması göstərilməlidir. Kəskin dəyişmələr həm xammalın miqdarı, həm keyfiyyəti, həm də onun qiyməti ilə bağlı ola bilir. Xarici alimlərin bu istiqamətdə tədqiqatına müraciət edərək qeyd edirik ki, belə qeyri-müəyyənlik emalçıları və qida məhsulları istehsalçılarını qane etmir. R.L. Kolz öz tədqiqatlarında göstərir ki, *"Proqnozlaşdırılan istehsal" kənd təsərrüfatı və qeyri-*

---

[3] Quliyev, E. A. Etibarlı ərzaq təminatı sistemi: kooperasiya və inteqrasiya problemləri / E. A. Quliyev – Bakı: Elm, 2018, - 307 s.235

*fermer istehsalının inteqrasiyasını mümkün etmişdir. Fermerlərin maliyyələşməyə və risklərdən sığortalanmaya olan tələbatları onları əməkdaşlığa və kooperasiyalaşmağa stimullaşdırmışdır"*[4].

Bu və ya digər emal və qida müəssisəsi istehsal gücündən lazımi səviyyədə istifadə etmək və fəaliyyətinin səmərəliliyini təmin etmək üçün kənd təsərrüfatı xammalı istehsalçıları ilə inteqrasiya əlaqəsinə getmək zərurətilə üzləşir. Əks halda bazarda xammalın qiymət dəyişmələri müəssisənin maliyyə vəziyyətinin də dəyişməsilə nəticələnir ki, bu da stabil və getdikcə daha da yaxşılaşan inkişafa mane olmaqla onun əsaslarını zəiflədir. Bundan başqa, emalçıların və qida istehsalçılarının inteqrasiya əlaqələrinə getmələri həm də onların bazarda məhsullarının mövqeləndirilməsilə əlaqələndirilir.

Qida sənayesində 2015-2023-cü illərdə yaradılmış əlavə dəyər 584,3 milyon manatdan 1053,2 milyon manata çatmış və ya 80,2% artmışdır. Təhlil edilən illər ərzində emal sənayesində yaradılmış əlavə dəyərin 3,3 - 3,5%-i, ümumi daxili məhsulun isə 1,0 - 1,2%-i qida sənayesinin payına düşmüşdür. Bütövlükdə emal və qida sənayesində yaradılan əlavə dəyər 2014-cü ildə baş verən inflyasiya səbəbindən 2018-ci ilə qədər azalma baş vermiş, bu müddət ərzində yeni formalaşan qiymətlərə uyğunluq təmin edildikdən sonra isə yenidən artım olmuşdur. Qida sənayesində yaradılan əlavə dəyərin dinamikası diaqramda verilmişdir.

Azərbaycan DSK-nın məlumatlarına görə sənaye sahələrində yaradılmış əlavə dəyərin iqtisadi fəaliyyət növləri üzrə dinamikasında artım müşahidə olunsa da 2023-cü ildə emal sənayesində bu göstərici əvvəlki ilə nisbətən 5,2 % bəndi azalaraq, 15%-dən 9,8 %-ə düşmüşdür. O cümlədən, qida məsulları istehsalında bu göstərici müvafiq illər üzrə müqayisədə 0,9% bəndi azalmışdır.

Ölkəmiz üçün prioritet vəzifə süd və süd məhsulları istehsalının artırılması və əhalinin tələbatına uyğun süd və süd məhsullarının bazara təklifindən ibarətdir. Çünki əhalinin süd və süd məhsullarına tələbatının ödənilmə səviyyəsi rasional fizioloji normalardan aşağıdır və bu baxımdan sözügedən məhsullar bazarı böyük artım potensialına

---

[4] Ричард, Л. Колз /Ричард Л. Колз, Джозеф Н. Ул/Маркетинг сельскохозяйственной продукции, Москва «Колос», 2000, 509 ст.238




**Diaqram. Emal və qida məhsullarının istehsalı sahəsində yaradılan əlavə dəyər, cari qiymətlərlə (milyon manat)**

*Mənbə: https://www.stat.gov.az/source/agriculture/*

malikdir. Azərbaycanın süd və süd məhsulları bazarı böyük inkişaf perspektivinə malikdir və bu bazarın inkişaf perspektivini müsbət qiymətləndirmək olar. Məhz bu baxımdan, süd və süd məhsulları bazarının inkişaf perspektivini aşağıdakı kimi təsnifləşdirmək olar:

- südçülük istiqamətli təsərrüfatların fəaliyyətinin və süd emal müəssisələrinin investisiya proqramları çərçivəsində yaradılmasının dövlət tərəfindən dəstəklənməsi;
- heyvandarlıqla məşğul olan əhalinin real gəlirlərinin və alıcılıq qabiliyyətinin artırılması;
- geniş miqyaslı tədbirlər həyata keçirməklə süd və süd məhsulları bazarının artım potensailına malik olması;
- müxtəlif əhali təbəqələrinin süd və süd məhsulları istehlakının cari vəziyyəti sözügedən məhsulların rasional fizioloji istehlak normalarından və inkişaf etmiş ölkələrdə süd və süd məhsullarının istehlakından aşağıdır;
- keyfiyyətli məhsullar hesabına insanların sağlam həyat tərzinə maraqlarının daha da artırılması;
- Azərbaycan əhalisinin qida rasionunda süd və süd məhsullarının istehlakına üstünlük verməsinin təşviqi.

Yuxarıda sadalanan amillər yaxın gələcəkdə Azərbaycan əhalisinin

süd və süd məhsullarına tədiyyə qabiliyyətli tələbinin artımına və deməli, sözügedən məhsullar bazarının real tutumunun artımına və həmin bazarın daha da inkişafına gətirib çıxara bilər.

**Dissertasiya işinin "Ət və süd emalı sənayesində iqtisadi münasibətlər sisteminin mövcud vəziyyətinin təhlili"** adlanan ikinci fəslində qida sənayesində istehsalın mövcud vəziyyəti araşdırılaraq təhlil edilmiş, ət və süd emalı sektorunda iqtisadi münasibətlər sisteminin tənzimlənməsinin mövcud vəziyyəti öryənilmiş və qida sənayesinin bazar fəaliyyətinə təsir göstərən amillərinin təhlili aparılmışdır.

Azərbaycanın qida sənayesi xammal çatışmazlığı və məhsul satışı problemlərinin mövcudluğu səbəbindən zəif inkişaf etməkdədir. Bu sənaye sahəsinin məhsullarına əhalinin yüksək təlabatı və sözügedən məhsulların saxlanılmasının ərzaq kimi istifadə edilən kənd təsərrüfatı məhsulları ilə müqayisədə daha asan olması, daimi bazarının olması qida məhsullarının istehsalına marağı daha da gücləndirmişdir. Aparılan tədqiqatlar göstərir ki, 2017-ci illə müqayisədə 2023-cü ildə qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin sayı 361-dən 641-ə yüksəlmiş və yaxud 280 vahid artmışdır.

Son altı il üzrə qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin fəaliyyətinin əsas göstəriciləri cədvəl 1-də verilmişdir.

Cədvəlin məlumatlarından göründüyü kimi, 2018-ci illə müqayisədə 2023-cü ildə sənaye fəaliyyətilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı 4754-dən 7456-a çatmış və yaxud 2702 vahid (45,6%) artmışdır. Bu sahədə fəaliyyət göstərən müəssisələrin və sahibkarlıq strukturlarının hesabına istehsal olunmuş sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri 3050,8 milyon manatdan 4547,6 milyon manata qədər (49,0%) çoxalmışdır.

Ətin növlər üzrə artımının təhlili göstərir ki, son illər qeyd edilən göstərici üzrə quş əti ön sırada qərarlaşmışdır. Bu da sənaye quşçuluğunun inkişaf etdirilməsinin iribuynuzlu mal-qara ətinin istehsalı ilə müqayisədə daha asan başa gəlməsi və sonuncunun istehsal müddətinin daha qısa olması ilə bağlıdır. Rusiya tədqiqatçıları tərəfindən aparılan tədqiqatlarda da bu vəziyyətin onlarla eyni olduğunu göstərir. Belə ki, onlar tərəfindən aparılan tədiqatlarda qeyd edilir ki, *"Mal ətinə tələbin azalması bütün*

*dünyada müşahidə edilir və tələbin bu azalması sürünün sayının azalması, mal ətinin qiymətinin artımı, heyvanların saxlanılması xərclərinin çoxalması və genetikanın quşçuluq və donuzçuluqla müqayisədə zəif inkişafı ilə əsaslandırılır"* [5].

**Cədvəl 1**

**Qida məhsullarının istehsalı ilə məşğul olan müəssisələrin fəaliyyətinin əsas göstəriciləri**

| Göstəricilər | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 |
|---|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı | 393 | 449 | 487 | 540 | 587 | 641 |
| dövlət | 7 | 9 | 9 | 9 | 7 | 8 |
| qeyri- dövlət | 386 | 440 | 478 | 531 | 580 | 633 |
| Sənaye fəaliyyətilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı | 4754 | 5252 | 6042 | 6623 | 6924 | 7456 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) dəyəri, müvafiq illərin cari qiymətləri ilə, milyon manat | 3050,8 | 3584,8 | 3884,3 | 4495,6 | 4890,9 | 4547,6 |
| Sənaye istehsalı indeksi, əvvəlki ilə nisbətən faizlə (sabit qiymətlərlə) | 101,3 | 110,8 | 97,3 | 112,6 | 108,2 | 109,2 |
| Ölkədə istehsal edilmiş sənaye məhsulunun ümumi dəyərində sahənin payı, faizlə | 6,4 | 7,6 | 10,4 | 8,1 | 5,7 | 6,8 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, faizlə | 7,7 | 9,3 | 13,3 | 9,8 | 6,5 | 8.2 |

*Mənbə: Azərbaycanın sənayesi, DSK Bakı, 2024, s. 56- 57.*

Bütün dünya üzrə yaradılan ət resurslarının tərkibində quş ətinin payı 30%-i ötüb keçmişdir. Bu, ölkəmizdə də müşahidə edilir və quş

[5] Серегин, С. Н. Перспективы развития национальных рынков мясо и мясной продукции / С. Н. Серегин, Г. И. Панаедова, А-Н. Д. Магомедов // Стратегия развития экономики, 22(115)–2011, стр. 18. URL: https://cyberleninka.ru/article/n/perspektivy-razvitiya-natsionalnogo-i-regionalnyh-rynkov-myasa-i-myasnoy-produktsii

ətinin payı cəmi ət istehsalında yüksək olaraq qalmaqda davam edir. 2013-2023-cü illər ərzində ölkəmizdə istehsal edilən ətin tərkibində quş ətinin payı 26,1-29,5% arasında dəyişmişdir.

Azərbaycanda ətin təsərrüfat kateqoriyaları üzrə istehsalının 2018-2023-cü illər üzrə dinamikası cədvəl 2-də verilmişdir.

**Cədvəl 2**

**Ətin təsərrüfat kateqoriyaları üzrə istehsalı (min ton)**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2023-cü ildə 2018-ci ilə nisbətən, % |
|---|---|---|---|---|---|---|---|
| Bütün təsərrüfat kateqoriyaları üzrə | 326,0 | 335,7 | 346,0 | 357,6 | 368,2 | 379,2 | 116,3 |
| Əvvəlki ilə nisbətən, % | 102,9 | 103,0 | 103,1 | 103,4 | 103,0 | 103,0 | - |
| Kənd təsərrüfatı müəssisələri | 60,7 | 54,3 | 52,7 | 60,2 | 65,3 | 63,3 | 104,3 |
| Əvvəlki ilə nisbətən, % | 95,3 | 89,5 | 97,1 | 114,2 | 108,5 | 97,0 | - |
| Fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatları | 265,3 | 281,4 | 293,3 | 297,4 | 302,9 | 316,4 | 119,3 |
| Əvvəlki ilə nisbətən, % | 104,8 | 106,1 | 104,2 | 101,4 | 101,9 | 101,5 | - |

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı, DSK. Bakı, 2024, s. 101.*

Məlumdur ki, heyvandarlıqda istehsalın artırılması baş sayı ilə yanaşı, onların məhsuldarlığının artırılması ilə bağlıdır. Araşdırmalar göstərir ki, Azərbaycanda ailə-kəndli və ev təsərrüfatlarında cins maldarlıq və heyvandarlığın yemlənməsi texnologiyası zəif olduğundan hər baş inəkdən əldə edilən südün məhsuldarlığı inkişaf etmiş ölkələrdə əldə edilən məhsuldarlıqdan və yerli cins təsərrüfatlarda saxlanılan inəklərin məhsuldarlığından 6-7 dəfə aşağıdır. Azərbaycanda 2013-2023-cü illər üzrə südün növlər üzrə istehsalı cədvəl 3-də verilmişdir.

Emal sənayesi müəssisələri tərəfindən istehsal edilən ət və süd məhsullarının istehsal həcmi də həmin məhsullara olan tələbatdan

xeyli aşağıdır. Məsələn, süd məhsulu kimi kərə yağının ölkəmizdə istehsalı bu məhsula minimum tələbat səviyyəsində də deyil. Belə ki, bu məhsula ölkə əhalisinin minimum tələbatının 68,0 min ton olmasına baxmayaraq, həmin məhsulun istehsalı 2023-cü ildə cəmi 27,0 min ton təşkil etmişdir ki, bu da minimum tələbatın 41,5%-i səviyyəsinə bərabərdir.

**Cədvəl 3**

**Bütün təsərrüfat kateqoriyaları üzrə südün növlər üzrə istehsalı, (min ton)**

| İllər | Süd cəmi | o cümlədən | |
|---|---|---|---|
| | | İnək və camış südü | Qoyun və keçi südü |
| 2013 | 1796,7 | 1756,7 | 40,0 |
| 2014 | 1855,8 | 1824,2 | 31,6 |
| 2015 | 1924,5 | 1889,8 | 34,7 |
| 2016 | 2009,9 | 1971,7 | 38,2 |
| 2017 | 2024,1 | 1985,0 | 39,1 |
| 2018 | 2080,4 | 2042,8 | 37,6 |
| 2019 | 2150,8 | 2114,4 | 36,4 |
| 2020 | 2192,5 | 2156,9 | 35,6 |
| 2021 | 2223,9 | 2187,8 | 35,6 |
| 2022 | 2264, 7 | 2229,1 | 35,6 |
| 2023 | 2284.0 | 2249,7 | 34,3 |

*Mənbə: Azərbaycanın kənd təsərrüfatı, DSK. Bakı, 2024, s. 176.*

Son illər ölkəmizdə qida sənayesi müəssisələri tərəfindən istehsal edilmiş ət və süd məhsullarının dinamikası cədvəl 4-də verilmişdir. Ət və süd məhsullarının qiymətlərinin yüksək olması və bu məhsullara tələbatın ödənilməsilə bağlı problemin müəyyən qədər dərinləşməsinə həm də süd və ət emalı müəssisələrinin regionlar üzrə yerləşdirilməsində buraxılan nöqsanlar təsir göstərmişdir.

Azərbaycanda fəaliyyət göstərən quşçuluq müəssisələri ölkəmizin ət və ət məhsulları yarımkompleksində fəaliyyət göstərən müəssisələr sırasında daha çox inteqrasiyalaşmış müəssisələr kimi tanınırlar.

**Cədvəl 4**

**Qida müəssisələri tərəfindən ət və süd məhsullarının istehsalının dinamikası (min ton)**

| | 2018 | 2019 | 2020 | 2021 | 2022 | 2023 | 2023-cü ildə 2018-ci ilə nisbətən,% |
|---|---|---|---|---|---|---|---|
| Kolbasa məmulatları | 16,4 | 19,3 | 25,8 | 26,7 | 29,7 | 30,2 | 184,1 |
| Yağlılığı 1-6% olan süd və qaymaq | 929,3 | 962,0 | 974,6 | 965,1 | 929,1 | 897,8 | 96,6 |
| Yağlılığı 6%-dən çox olan süd və qaymaq | 6,9 | 7,6 | 8,8 | 9,0 | 8,2 | 9,1 | 131,9 |
| Kərə yağı | 23,6 | 24,1 | 24,6 | 27,0 | 25,9 | 27,0 | 114,4 |
| Bütün növ pendirlər | 50,1 | 51,4 | 53,5 | 53,4 | 57,9 | 55,0 | 109,8 |
| Qatıq, qaymaq, yoqurt və s. süd məhsulları | 131,2 | 141,3 | 157,0 | 151,5 | 145,1 | 157,7 | 120,2 |
| Dondurma | 0,2 | 0,9 | 2,2 | 3,4 | 5,8 | 5,1 | 25.5 dəfə |

*Mənbə: Azərbaycanın sənayesi, DSK Bakı, 2024, s.55., Azərbaycanın ərzaq balansı, DSK, 2024, s.61-65.https://www.stat.gov.az/source/agriculture/*

**Dissertasiya işinin "Qida sənayesinin iqtisadi münasibətlər sisteminin tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri"** adlanan üçüncü fəslində müəllif tərəfindən qida sənayesində iqtisadi münasibətlər sisteminin tənzimlənməsi, qida sənayesində klasterləşmənin təşkili əsaslandırılmış və ölkə əhalisinin ət və süd məhsullarına tələbatının proqnozlaşdırılması istiqamətində tədqiqat işi davam etdirilmişdir.

Azərbaycan DSK-nın məlumatlarına əsasən qeyd edilmişdir ki, ölkəmizdə ətin və südün əhəmiyyətli hissəsi kənd təsərrüfatında fəaliyyət göstərən xırda təsərrüfatlar – fərdi sahibkar, ailə-kəndli və ev təsərrüfatları tərəfindən istehsal edilir. Aparılan tədqiqatlar göstərir ki, 2017-2023-cü illərdə ətin 80-83,2%-i, o cümlədən mal ətinin 97,7-98,6%-i, qoyun və keçi ətinin 99,1-99,3%-i, quş ətinin isə 41,3-54,8%-i, südün isə 95,6-96,0%-i fərdi sahibkar, ailə kəndli və ev təsərrüfatlarının payına düşmüşdür.[6]

[6] https://www.stat.gov.az/source/agriculture/

Ətin və südün istehsalında rəqabətə davamlı olmayan xırda təsərrüfatların dominantlıq (aparıcı qüvvə) təşkil etməsi onların problemlərinin operativ surətdə həllini və bazara uyğunlaşmaları üçün müvafiq tədbirlərin həyata keçirilməsini şərtləndirir. Bu tədbirlər sistemində əlbəttə, aqrar-ərzaq və qida məhsulları istehsalında sahələrarası əlaqələrin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Məhz bu tədbirlər vasitəsilə bir tərəfdən bu sistemdə fəaliyyət göstərən müəssisə və təsərrüfatların bazar fəaliyyətinin davamlılığına şərait yaratmaq, başqa bir tərəfdən isə onların bazarın tələblərinə uyğun istehsal-satış fəaliyyətini təşkil edib, idarə etmələrinə dəstək vermək mümkündür.

Dissertasiya işində göstərilir ki, qida sənayesində fəaliyyət göstərən ət və süd emalı müəssisələrinin iqtisadi münasibətlər sistemi bu müəssisələrin fəaliyyətini tənzimləmək məqsədilə qəbul edilmiş normativ hüquqi sənədlər vasitəsilə həyata keçirilir. Sözügedən müəssisələrin fəaliyyətinin dövlət tənzimlənməsi metodlarına gəldikdə, qeyd edə bilərik ki, bu metodları aşağıdakı sxemdə göstərildiyi kimi qoruyucu və dəstəkləyici, həmçinin stimullaşdırıcı metodlara bölmək olar.




**Sxem. Qida sənayesi müəssisələrinin fəaliyyətinin dövlət tənzimlənməsi metodları**

*Mənbə: Sxem müəllif tərəfindən tərtib edilmişdir.*

Qida sənayesində müəssisələr arasında, o cümlədən ət və süd məhsulları istehsal edən müəssisələr arasında tərəfdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin üstünlükləri çoxdur. Con İqan müəssisə və təşkilatlar arasında tərəfdaşlıq münasibətlərinin üstünlüklərinə bu sahədə tədqiqatları olan tanınmış alimlərin fikirlərini öyrənərək aşağıdakıları aid edir:

- daha aşağı transaksiya xərcləri;
- xammal göndərmələrin fasiləsizliliyi;
- xammal göndərənlə müştəri qismində çıxış edən müəssisənin fəaliyyətlərinin koordinasiyasının yaxşılaşdırılması;
- bazara autsayderin daxil olmasını əngəlləyən etibarlı baryerin yaradılması.

Qeyd etdiyimiz kimi, bazar fəaliyyətinin həyata keçirilməsində tərəfdaş qismində çıxış edən müəssisələrin (xammal və material göndərənlərin, ticarət müəssisələrinin və s.) seçilməsində ət və süd məhsulları istehsal edən müəssisələr tamamilə sərbəstdirlər. Bu müəssisələrin müştəri üçün dəyərin yaradılması zəncirində iştirakçı qismində çıxış edən müəssisələrlə iqtisadi münasibətlər sisteminə keçidi onun şaquli qarşılıqlı marketinq münasibətlərini əks etdirir.

Dissertasiya işində klasterlərin inkişafının əhəmiyyətindən bəhs edilərək qeyd edilir ki, aqroklasterin bazar infrastrukturu blokuna banklar, sığorta təşkilatları, informasiya məsləhət xidmətləri və s. kimi təşkilatlar daxildir. Bu təşkilatların fəaliyyəti nəticəsində klasterə daxil olan müəssisələr fəaliyyətlərinin müxtəlif xarakterli risklərdən sığortalanmasını təmin edir, eyni zamanda ərzaq bazarının ət və ət məhsulları, süd və süd məhsulları bazarında baş verən dəyişikliklərə dair informasiyalar əldə edə bilərlər.

İstehsalın və tələbatın 2025-2030 illər ərzində statistik məlumatlar bazasında verilmiş proqnoz məlumatlarına görə Azərbaycanda əhali sayı 2025-ci ildə 10510,0 min nəfər, 2027-ci ildə 10595,0 min nəfər, 2030-cu ildə 10711,0 min nəfər və 2034-cü ildə isə 10850,0 min nəfərə çatacaqdır[7].

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2014-cü il 6 iyun tarixli 182 saylı qərarına əsasən minimum istehlak səbəti üzrə təsdiq

[7] https://www.fao.org/about/who-we-are/departments/statistics-division

edilmiş əsas növ ərzaq məhsullarının illik istehlak normalarına əsasən orta hesabla bir nəfərə düşən ət və ət məhsullarının istehlakı 31,5 kq, süd və süd məhsullarının (südə çevirməklə) istehlakı isə 232,3 kq miqdarında müəyyənləşdirilmişdir. Bu normalara əsasən 2027-ci ildə ət və ət məhsullarına olan tələbatın 333,7 min ton, süd və süd məhsullarına olan tələbatın isə 2461,2 min ton olması gözlənilir.

Tərəfimizdən aparılan hesablamala görə, tədqiq olunan illər ərzində (2025-2030) ölkə əhalisinin ət və ət məhsullarına minimum tələbatı 331,1-337,4 min ton arasında, süd və süd məhsullarına minimum tələbatı isə 2441,5-2488,2 min ton arasında, o cümlədən kərə yağına minimum tələbat isə 70,4-71,8 min ton arasında dəyişəcəkdir. Bu qədər məhsulların istehsalı Azərbaycanın özünün imkanları daxilindədir.

**Dissertasiya işinin "Nəticə" bölməsində tədqiqat əsasında elmi təcrübi əhəmiyyətə malik təklif və tövsiyələr aşağıdakı kimi ümumiləşdirilmişdir.**

1. Apardığımız tədqiqatlar göstərir ki, ət və süd sənayesinin onun səmərəliliyinə, davamlılığına və rəqabət qabiliyyətinə təsir edən bir sıra sistemli problemlərlə üzləşməsi ölkələrə görə oxşarlıqları və fərqlilikləri vardır. Azərbaycanda istehsal olunan məhsulun ilk növbədə keyfiyyətli və sağlamlıq üçün təhlükəsiz olması əsas şərtlərdən biridir və bu bütün ölkələrdə də belədir. Lakin bu tələbə baxmayaraq istehlakçı hüquqlarının pozulması halları tez-tez müşahidə olunur, əhalinin ət və süd emalı müəssisələrinə və eləcə də digər qida məhsulları istehsal edən müəssisələrə güvəni və inamı aşağı səviyyədədəir. İstehlakçı inamını qazanmaq və keyfiyyətli məhsul istehsalına nail olmaq üçün bu sahədə istehsalın bütün mərhələlərində nəzarətin gücləndirilməsi, müasir monitorinq və təhlil texnologiyalarının tətbiqi, məhsulların mənşəyinin izlənilməsi sistemlərinin təkmilləşdirilməsi tələb olunur.

Digər mühüm problemlərdən biri ölkəmizdə məhsuldarlığın və istifadə olunan xammalın keyfiyyətinin (dondurulmuş ət, quru süd, təzə südün yağlılıq dərəcəsi) aşağı olmasıdır. Xəstə heyvanların və ya mənşəyi bəlli olmayan ətlərin bazara yol tapması da mövcud problemlər sırasındadır. Bunun üçün heyvanların məhsuldarlığının artırılması, südün və ətin keyfiyyətinin yaxşılaşması üçün səmərəli

qidalanma və baytarlıq xidmətinin gücləndirrilməsi tələb olunur. Eyni zamanda, müasir bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq mal-qaranın bəslənməsi və onlara qulluq edilməsində müasir texnologiyaların tətbiqi, genetikanın təkmilləşdirilməsi, baytarlıq xidmətinin yaxşılaşdırılması, ekoloji cəhətdən təmiz texnologiyaların tətbiqi, resurslardan istifadənin optimallaşdırılması, tullantıların və tələf olmuş heyvanların utilizasiyası istiqamətində xüsusi layihə və proqramların hazırlanmasına ehtiyac vardır. Hesab edirik ki, bu yanaşmalar ət və süd sənayesinin səmərəliliyinin və dayanıqlığının və onun rəqabət qabiliyyətinin artırılmasına və yüksək keyfiyyətli məhsulların təmin edilməsinə stimul yaradır.

2. Ət və süd sənayesində xammal bazasının inkişafı ilə emal müəssisələrinin yerləşdirilməsi arasında uyğunsuzluq, daşınma xərclərinin yüksək olması, məhsulun keyfiyyətinin aşağı düşməsi, resurslardan səmərəsiz istifadə kimi bir çox problemlərə gətirib çıxarır. Bu cür uyğunsuzluqların aradan qaldırılması üçün bir neçə strategiya və istiqamətlər müəyyən edilmişdir. Məlum olduğu kimi regionlarımız təbii-torpaq iqlim şəraitinə görə fərqlənirlər. Bu baxımdam, məhsul istehsalını planlaşdırarkən ilk növbədə regionlarda xammal ehtiyatlarının və emal ehtiyaclarının ətraflı təhlilinin aparılması tələb olunur. Bura istehsal həcminin, emal müəssisələrinin ehtiyaclarının və yeni texnologiyaların genişləndirilməsi imkanlarının qiymətləndirilməsi daxildir.

Aqrar sahənin və eləcə də emal və qida sənayesinin inkişafının təmin edilməsi üçün xammal sahələrinin ehtiyaclarını və emal müəssisələrinin mövcudluğunu nəzərə alan strategiyaların hazırlanması mütləqdir. Bu cür strategiyalar regional iqtisadi inkişaf planlarına və ya proqramlarına inteqrasiya edilməlidir. Digər tərəfdən regional inkişafda mühüm amillərdən biri də logistika və nəqliyyat infrastrukturunun müasir tələblərə cavab verməsinin təmin edilməsidir. Bu xammal istehsalı sahələri və emal müəssisələri arasında daşımaların sürətləndirilməsi nəqliyyatın yaxşılaşdırılması məhsulun keyfiyyətli və itkisiz çatdırılmasına, xammalın və hazır məhsulların səmərəli paylanmasını təmin etməyə, daşınma və saxlama xərclərini azaltmağa imkan verər.

3. Regionlarda olan xammal istehsalına uyğun emal müəssisələrinin yerləşdirilməsi məqsədilə, xammal bazasının əsas

sahələrinin yaxınlığında yeni emal müəssisələrinin yaradılması imkanlarının qiymətləndirilməlidir. Burada, həm yeni müəssisələrin tikintisinə ehtiyacın müəyyən edilməsinə, həm də mövcud müəssisələrin modernləşdirilməsinə baxmaq olar. Sərt rəqabət mühitində emal sənayesinin inkişafı riskli hesab edildiyindən xammalın artıq olduğu rayonlarda emal müəssisələrinin yerləşdirilməsinin stimullaşdırılması üçün dövlət dəstəyi proqramlarının hazırlanmasına ehtiyac vardır. Biz bunları nəzərə alaraq tədqiqatımızda inteqrasiya proseslərinin səmərəli təşkili üçün inkişaf etmiş ölkələrin təcrübəsindən istifadə etməklə ölkədə klaster və kooperativlərin yaradılmasını məqsədəuyğun hesab edirik. Aqrosənaye klasterlərinin inkişafında xammal istehsalçıları və emalçılarının sıx əməkdaşlıq şəraitində işlədiyi halda, aqrar-emal klasterlərinin formalaşmasının daha səmərəli olduğu müəyyən edildi. Bu, həm də müxtəlif təchizat zəncirinin iştirakçıları arasında təkmilləşdirilmiş koordinasiya və ardıcıllığa imkan verir.

Aqrar sahədə fəaliyyət göstərən təsərrüfatların əksər hissəsinin çox kiçik olduğunu nəzərə alaraq bu sahədə emal gücünə birgə sərmayə qoya bilən və emalçılarla koordinasiyanı yaxşılaşdıra bilən kiçik istehsalçılar arasında kooperativlərin yaradılmasının müəyyən edilməsini və onun dövlət dəstəyi mexanizminin hazırlanmasını məqsədəuyğun hesab edirik. Hesab edirik ki, qeyd edilən məsələlərin həyata keçirilməsi xammal bazasının inkişafı ilə emal müəssisələrinin yerləşdirilməsi arasında ardıcıllığı əhəmiyyətli dərəcədə yaxşılaşdıra bilər ki, bu da öz növbəsində ət və süd sənayesinin səmərəliliyini və dayanıqlı inkişafını təmin edər.

4. Ət və süd məhsullarının emalı sahəsində müəssisə və təsərrüfatlar arasında kooperasiya və inteqrasiya münasibətləri əsasında əlaqələrin formalaşdırılması, sənayenin səmərəsizliyi, yüksək məsrəflər və tədarükün qeyri-sabitliyi kimi bir çox problemlərinin həlli üçün ən səmərəli üsullardan biridir. Təsərrüfatların xırda və kiçik olması səbəbindən kənd təsərrüfatı kooperativlərinin yaradılması istehsal resurslarından səmərəli istifadə etməyə, xərclərin azaldılmasına, məhsulun keyfiyyətinin yüksəldilməsinə imkan verməklə bərabər, xammaldan yeni məhsul almağa, əlavə iş yerlərinin açılmasına və məşğulluğun yüksəlməsinə səbəb olur.

Heyvandarlıqla məşğul olan ailə-kəndli təsərrüfatları və fərdi sahibkarlar istehsal etdikləri süd və əti birgə emal etmək üçün kooperativlər yarada bilərlər. Bu, avadanlıq, texnologiya və logistika xərclərini azaltmağa, həmçinin məhsulun keyfiyyətinə nəzarəti yaxşılaşdırmağa imkan verər. Lakin, onların mövcud maliyyə durumunun aşağı olduğunu nəzərə aldıqda, bu məqsədlə xüsusi dövlət dəstəyi mexanizminin hazırlanmasını məqsədəuyğun hesab edirik.

Qeyd edək ki, kooperativlər emal müəssisələrini qurmaq və ya təkmilləşdirmək üçün investisiya cəlb edə bilər. Bu onları bazarın dəyişməsinə daha davamlı edir və mövcud resurslardan daha yaxşı istifadə edir. Burada emalçılarla birgə, müştərək fəaliyyəti də nəzərdən keçirmək olar. Belə ki, istehsal proseslərinin inteqrasiyası təsərrüfatların və emal müəssisələrinin vahid təchizat zəncirinə inteqrasiyası, onlar arasında koordinasiyanın yaxşılaşdırılmasına, istehsal prosesində yaranan tullantıların azalmasına və səmərəliliyin artmasına səbəb ola bilər. Burada uzunmüddətli müqavilələrin və təchizat müqavilələrinin bağlanması ilə bağlı mexanizmlərin hazırlanması və təkmilləşdirilməsi tələb olunur.

Kooperativlərin qurulması yeni texnologiyalara birgə çıxışı asanlaşdırır. Təsərrüfatlar və emalçılar avtomatlaşdırma sistemləri, biotexnologiya və ekoloji cəhətdən təmiz emal üsulları kimi yeni texnologiyalara birgə sərmayə qoya bilərlər. Burada gəlirlərin qoyulan investisiya və ya kapitalın xüsusi çəkisinə görə bölüşdürülməsi tərəfləri qane edəcək bir mexanizm ola bilər və tərəflərin marağına uyğun olar. Bu, məhsuldarlığı və məhsul keyfiyyətini yaxşılaşdırmağa və bazarda məhsulun daha yaxşı satılmasına və istehlakçıların inamını qazanmağa da imkan verir. Kooperativlərin emalçılarla birgə təşkili marketinq startegiyalarının hər iki sahədə aqrar və emal sahələrində səmərəli tətbiqinə, yəni birgə reklam kampaniyaları, sərgi və yarmarkalarda iştirak, istehlakçıları cəlb etmək və saxlamaq üçün dürüst proqramların hazırlanmasına imkan verir ki, bu sonda gəlirlərin artmasını və xarici bazara çıxışı stimullaşdırır.

5. Xammal istehsalçıları (fermerlər) ilə ət-süd müəssisələri arasında kooperasiya və inteqrasiya əlaqələrinin yaradılması, genişləndirilməsi və idarə olunmasının təkmilləşdirilməsi sistemli yanaşma və kompleks strategiyaların həyata keçirilməsini tələb edir.

Bunun üçün onlar arasında əməkdaşlıq strategiyalarının hazırlanması və həyata keçirilməsinə ehtiyac vardır. Həm fermerlər, həm də emalçılar tərəfindən ehtiyac və imkanların hərtərəfli təhlilinin aparılması, əsas xammal tələblərinin, mümkün təchizat həcmlərinin və keyfiyyət tələblərinin müəyyən edilməsi, onların birgə fəaliyyətlərini səmərəli qurmaq üçün mütləqdir.

Tərəflərin apardıqları araşdırma və təhlillər (burada onlara yaxın olan elmi tədqiqat institutlarından da yararlanmaq olar və ya onlar da kooperativin üzvü ola bilərlər) əsasında öz fəaliyyətləri üçün strateji plan da hazırlaya bilərlər. Bu strateji planda onların məqsədləri, vəzifələri, fəaliyyət planını və risklərin qiymətləndirilməsini özündə əks etdirən əməkdaşlıq öz əksini tapır. Bu, isə öz növbəsində əməkdaşlıq sahələrini və qarşılıqlı fayda üçün imkanları aydın şəkildə müəyyən etməyə kömək edir.

Kooperativlərin idarəedilməsinin təkmilləşdirilməsi üçün idarəetmədə şəffaflıq və dürüstlük, habelə iştirakçılar arasında səmərəli qarşılıqlı əlaqəni təmin etmək məqsədilə kooperativlər üçün daxili nizamnamələrin və qaydaların müəyyən edilməsi zəruridir. Burada mühüm məsələlərdən biri də maliyyə məsələləri və iqtisadi idarəetmənin sadələşməsidir. Bu məqsədlə tərəflərin maraqlarını nəzərə alan və əməkdaşlıqda sabitlik və proqnozlaşdırıla bilən maliyyə modellərinin və müqavilələrinin hazırlanması tələb olunur. Bura xammalın tədarükü üçün uzunmüddətli müqavilələr və qiymətlərin müəyyən edilməsi mexanizmləri də daxildir. Bu həmdə kooperativlərlə elm tədqiqat sahələri arasında əməkdaşlığı da zəruri edir.

Hesab edirik ki, bu istiqamətlərin həyata keçirilməsi xammal istehsalçıları ilə emal müəssisələri arasında davamlı və səmərəli kooperativ və inteqrasiya əlaqələrinin yaradılmasına, aqrar sahənin xüsusilə də heyvandarlıq sektorunun və sənayenin ümumi səmərəliliyinin və rəqabət qabiliyyətinin yüksəldilməsinə səbəb ola bilər.

6. Aqrar sahə təsərrüfatları ilə ət və süd məhsulları istehsalı sənayesində sahələrlərarası münasibətlərdə dövlət tənzimlənməsinin rolunun artırılmasının bir neçə əsas mövqe və əsaslandırılması var. Çünki sahənin tənzimləməsi sənayenin koordinasiyasının, səmərəliliyinin və davamlılığının yaxşılaşdırılmasında mühüm rol oynaya bilər.

Məlumdur ki, məhsul istehsalçıları bazarda inhisarçı mövqe tutmağa, bazara təklif etdikləri məhsulları yüksək qiymətlərə satmaqda maraqlıdırlar. Bu halda, bazarda səmərəsizlik yaranır, ölkədə sosial – iqtisadi problemlər yüksəlir, milli valyutaya mənfi təsir güclənir. Məhz bu baxımdan dövlət tənzimləməsi zəruri hesab olunur. Burada həm də xarici məhsulların yerli istehsalçılara daxili bazarda təzyiqi məslələri də var ki, bu da öz növbəsində dövlət tənzimlənməsinin gücləndirilməsini zəruri edir. Məhz bu baxımdan, dövlət tənzimlənməsi inhisarlaşmanın qarşısını ala və sağlam rəqabəti təşviq edə bilər ki, bu da qiymətləri aşağı salmağa və məhsulun keyfiyyətini yaxşılaşdırmağa şərait yaradır.

Dövlət bu məsələlərdə həssas yanaşma mexanizmi tətbiq etməlidir, çünki bazar tam olaraq istehlakçının xeyrinə olduqda istehsalçı sıradan çıxır və ya tərsinə bazarda istehsalçı tərəfindən inhisarlaşma baş verərsə sosial problemlər arta bilər və s. Odur ki, tənzimlənmə balanslı olmalıdır. Yəni qiymət dəyişkənliyi izlənilməli və lazım gəldikdə müdaxilə mexanizmi olmalıdır. Bu halda tənzimləmə xammal və məhsulların qiymətlərindəki dalğalanmaları hamarlaşdırmağa nail olmaqla bütün bazar iştirakçıları üçün sabit mühit təmin edilə bilər.

7. Bu gün ən aktual məsələlərdən biri də istehsal olunan məhsulların keyfiyyətinin və təhlükəsizliyinin yüksəldilməsinin təmin edilməsidir. Bunun üçün dövlətin standartlaşdırma və nəzarət mexanizmi olmalıdır. Onu da qeyd edək ki, istehsal olunan məhsulların beynəlxalq standartlara uyğun olması bu məhsulların ixracını asanlaşdırır və bazarda onu rəaqbətqabiliyyətli edir. Keyfiyyət və məhsulun təhlükəsizliyi standartlarının işlənib hazırlanması və tətbiqi, onların uyğunluğuna nəzarət mexanizminin təkmilləşdirilməsinə böyük ehtiyac vardır. Bu, həm də istehlakçıların sağlamlığını qorumağa və məhsullara inamı artırmağa kömək edir.

Aktual olan məsələlərdən biri də bütün sahələrdə olduğu kimi monitorinqin aparılması və sertifikatlaşdırma proqramlarının hazırlanmasıdır. Yüksək keyfiyyət və təhlükəsizlik standartlarını təmin etməyə yönəlmiş monitorinq və sertifikatlaşdırma sistemlərinin yaradılması və saxlanması Azərbaycan qida sənayesi və xammal istehsalçıları üçün çox önəmlidir. Məsələn ölkədə istehsal olunan buğda məhsulunun böyük hissəsi ərzaqlıq standartlarına uyğun

gəlmədiyi üçün hər il yüksək həcmdə (1.4-1.5 milyon ton) buğda idxal olunur.

Bazarlarda saxtakarlığa qarşı mübarizənin gücləndirilməsi və istehlakçı hüquqlarının qorunmasıda Azərbaycan üçün aktual məsələlərdən bir olaraq qalmaqdadır. Bunu istehsal olunan ət və süd məhsullarının tərkibinin düzgün olmadığı kimi demək olar. Yəni, ölkəmizin istehlakçıları tərəfindən bu məhsullara inam olduqca aşağı səviyydədir. Məsələn, Azərbaycan DSK-nın məlumatlarına görə hər il ölkəmizə 50 min tona qədər (2023-45570.2 ton) palma yağı idxal olunsa da onun istifadə istiqamətləri bəlli deyildir. Odur ki, ədalətli bazar şəraitini qorumağa kömək edən və istehlakçıları qoruyan qeyri-qanuni istehsal və saxta məhsullarla mübarizə aparmaq üçün tədbirlər görülməsi zəruridir və bu qida sənayesinin gələcək inkişafını stimullaşdırır.

Daha mühüm məsələlərdən biri də yerli istehsalçıların xarici təzyiqlərdən qorunmasıdır. Bazar şəraitini poza və qanuni bazar iştirakçılarına zərər verə biləcək dempinq və haqsız rəqabətə qarşı tədbirlərin görülməsi üçün qanunların mövcud olması ilə bərabər səmərəli tətbiqi mexanizminin olması yerli istehsalçılarda böyük inam yaradır.

Aqrar sahədə və eləcə də ət və süd sənayesində dövlət tənzimləməsinin gücləndirilməsi onun daha səmərəli və dayanıqlı inkişafına, məhsulun keyfiyyətinin və istehlakçılar üçün təhlükəsizliyinin yüksəldilməsinə, eləcə də regionların iqtisadi və sosial inkişafına dəstək ola bilər. Mühüm aspektlər adekvat standartların yaradılması, əməkdaşlığa və innovasiyaya dəstək və bütün bazar iştirakçıları üçün bərabər şəraitin təmin edilməsidir.

8. Aqrar sahə, emal və qida sənayesi sahələri arasında inteqrqasiya münasibətlərinin inkişafında mühüm istiqamətlərdən biri də, ət və süd klasterinin təşkilidir. Klaster fəaliyyətinin inkişafı məhsulların istehsalı, emalı və satışının inteqrasiyasını əhatə edən kompleks həll yoludur. Müxtəlif üsulların səmərəliliyi konkret şərtlərdən və məqsədlərdən asılı ola bilər, lakin uğurlu ət və süd məhsullarının klasterini yaratmağa kömək edən bir neçə ümumi qəbul edilmiş yanaşma və prinsiplər mövcuddur.

Məlumdur ki, ət və süd məhsullarının istehsalı heyvandarlığın

inkişafından başlayır və dəyər zənciri boyunca əlavə dəyər və yeni məhsullar şəklində son istehlakçıya çatdırılır. Yəni, heyvanların cins tərkibinin yaxşılaşdırılması, müasir innovativ texnologiyalar əsasında heyvandarlıq komplekslərinin inkişafı, yem bazasının möhkəmləndirilməsi və istehsal olunan məhsulların emalı, müxtəlif çeşiddə məhsulların hazırlanması, qablaşdırılması və son istehlakçıya çatdırılması kimi böyük proseslərdən keçir. Bu fəaliyyətin bir struktur çərçivəsində qurulması isə istehsal resurslarından istifadənin səmərəliliyini artırır, istehsal xərclərini aşağı salır, məhsulun keyfiyyəti yüksəlir və bütün mərhələlərdə keyfiyyətə nəzarəti yaxşılaşdırır, iştirakçılar arasında daha yaxşı planlaşdırma və koordinasiyanı təmin edir.

Klaster fəaliyyətinin digər üstünlüyü qlobal iqlim şəraitinin dəyişkənliyi ilə əlaqədar olaraq istehsalın səmərəliliyini artırmaqla bərabər, ətraf mühitə təsirləri minimuma endirmək və məhsulun keyfiyyətini artırmaq üçün yeni texnologiyaların tətbiqinə imkan verir. Çünki, ayrılıqda fəaliyyət üçün bu kimi texnologiyalar yüksək investisya tələb etdiyindən bu çətin görünür, birgə fəaliyyətdə isə dövlət dəstəyində asan olur. Bu isə öz növbəsində məhsuldarlığı artırır, resurs xərclərini azaldır və davamlılığı təşviq edir. Məsələn, müasir heyvandarlıq komleksinin inkişafında avtomatlaşdırılmış yemləmə sistemlərinin, robot sağım maşınlarının və heyvan sağlamlığının monitorinqi texnologiyalarının istifadəsi daha asandır və bu zaman həm südçülük təsərrüfatını, həm də süd və ət emalını idarə etdiyi klasterlər istehsalda ardıcıllıq və keyfiyyət standartlarını təmin etməklə mümkün olur. Onuda nəzərə almaq lazımdır ki, ölkəmiz üçün ən uğurlu klaster üçün resursların və bazarın öyrənilməsi və qarşıya qoyulan məqsədlərin dəqiqləşdirlməsi kimi xüsusi şərtlərdən istifadə edilməlidir. Dünya təcrübəsində göstərilən bu yanaşmaların birləşməsi çox vaxt ən uğurlu klasterin yaranmasına gətirib çıxarmışdır.

Azərbaycan əhalisinin ət və süd məhsullarına tələbatının tam ödənilməməsi, bu məhsulların qiymətlərinin son illər getdikcə artması və müxtəlif əhali təbəqələrinin alıcılıq qabiliyyətinin çox da yüksək olmaması qeyd edilən məhsulların daha mütərəqqi istehsal üsullarının tətbiqini şərtləndirir. Bu üsul kimi xammal bazasının inkişaf etdiyi

bölgələrdə süd və ət klasterlərinin təşkili və onların fəaliyyətlərinin dövlət tərəfindən müdafiə edilməsi əhalinin bu məhsullara tələbatının ödənilməsində irəliləyişlərə gətirib çıxara bilər.

Ət və süd klasterləri müəyən coğrafi ərazidə yerləşən və texnoloji zəncir boyunca fəaliyyətləri biri-birini tamamlayan müəssisə və təsərrüfatlar qrupu olmaqla müştəriyə dəyərin çatdırılması zəncirinin vəsilələri kimi özünü büruzə verirlər. Bu müəssisə və təsərrüfatlar qrupunun qarşılıqlı əlaqəli şəkildə fəaliyyət göstərməsi nəticəsində sinerji effekti əldə edilir ki, həmin effektə ayrıca fəaliyyət zamanı nail olmaq mümkün deyil.

Ət və süd məhsullarının maya dəyərinin aşağı salınmasında və bu məhsulların qiymətlərinin istehlakçılar üçün münasibliyinin təmin edilməsində klaster yanaşmanın tətbiqinin əhəmiyyəti böyükdür. Məhz bu yanaşma əsasında ət və süd məhsulları istehsal edən müəssisə və təsərrüfatların innovasiyalı inkişafı təmin edilə, onların bazar fəaliyyətlərinin davamlılığına və rəqabətqabiliyyətliliklərinin yüksəldilməsinə nail oluna bilər. Bütün bunlar son nəticədə ölkənin ət və süd məhsulları bazarının dayanıqlı inkişafı və həmin bazarın müvafiq seqmentlərində müəssisə və təsərrüfatlar qarşısında açılan marketinq imkanlarından yararlanma və xarici istehsalçıların bazara ekspansiyasının qarşısının alınması deməkdir.

**Dissertasiya işinin əsas müddəaları, əldə olunan nəticə və təkliflər dərc olunmuş aşağıdakı elmi əsərlərdə öz əksini tapmışdır:**

1. Qorçiyeva T.K., Zeynallı Ə.T., Kərimli S.Y. Aqrar-sənaye kompleksi sahələrində iqtisadi statistik qiymətləndirmə meyarlarının təkmilləşdirilməsi yolları // – Bakı: Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi-Tədqiqat İnstitutunun Elmi Əsərləri, Elmi-nəzəri jurnal, 2017. – s. 32-47.

2. Abbasov V.H., Qorçiyeva T.K. Milli iqtisadiyyatın sistemlilik xüsusiyyətləri // – Bakı: Bakı Biznes Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 96-cı il dönümünə həsr olunmuş "Azərbaycanda ali təhsilin beynəlmiləlləşdirilməsi və rəqabətliliyinin yüksəldilməsi istiqamətləri" mövzusunda Beynəlxalq elmi-praktiki konfransın materialları, – 2-3 may 2019. – s. 105-110.

3. Abbasov V.H., Qorçiyeva T.K. Qida sənayesi sahələrinin

inkişaf prioritetləri // – Bakı: Aqrar Tədqiqatlar Mərkəzi, “Kənd Təsərrüfatının İqtisadiyyatı” elmi-praktiki jurnal, 2020 № 1 (31). – s. 122-131.

4. Qorçiyeva T.K. Ət və süd emalı müəssisələrinin bazar fəaliyyətinə təsir göstərən amillərin təhlili // – Bakı: Azərbaycan Kooperasiya Universiteti, “Kooperasiya” elmi-praktiki jurnal, 2023, № 1 (68) – s. 123-131.

5. Abbasov V.H., Qorçiyeva T.K. Qida sənayesində iqtisadi münasibətlər sisteminin tənzimlənməsi istiqamətləri // – Stockholm Sweden: şair Mehmet Akif Ersoyun anadan olmasının 150 illiyinə həsr olunmuş “Türkologiyanın aktual problemləri” adlı multidisiplinar beynəlxalq elmi konfrans, “Actual Problems of Turkology”, – 27 avqust 2023. – s. 216-219.

6. Abbasov V.H., Qorçiyeva T.K. Ət və süd emalı sənayesinin iqtisadi inkişaf xüsusiyyətləri, // – Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş “Dövlətlərarası iqtisadi əlaqələr: müasir çağırışlar və perspektivlər” beynəlxalq elmi konfransın materialları, 25-26 may 2023. – s.110-114.

7. Abbasov, V.H., Gorchieva T.K. Current state and prospects for development of the meat and dairy industry in Azerbaijan, Romanian Statistical Review - Supplement nr. 12 / 2023. – s. 28-40.

8. Qorçiyeva T.K. Aqrar emal sənayesinin inkişafında əmək ehtiyatlarından səmərəli istifadənin təkmilləşdirilməsi // – Bakı: “Audit” elmi-praktiki jurnal, 2025, № 1 (47) – s. 144-155.

Dissertasiyanın müdafiəsi 13 may 2026-cı il tarixdə, saat $16^{00}$-da Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən FD 2.46 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəh., Nərimanov ray., Nəcəf Nərimanov küç. 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyaları Azərbaycan Kooperasiya Universitetinin (www.aku.edu.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 11 aprel 2026-cı il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 10.04.2026

Kağızın formatı: 60 x 84 1/16

Həcm: 47858 işarə

Tiraj: 100